Aqrar Xidmətlər Agentliyi

# Salxım Yarpaqbükəni

## (Lobesia botrana)(Denis & Schiffermüller)



088-588
axa.gov.az

# Zərərverici haqqında

Salxım yarpaqbükəni (giləqurdu) filloksearadan sonra ən təhlükəli zərərvericidir. Sıx salxımlı üzüm sortlarına daha çox ziyan vurur. Çünki sıx salxımlı üzüm sortları zərərvericinin tırtılları ilə zədələndikdə güclü çürümə gedir. Bu zərərverici vegetasiya ərzində 3-4 nəsil verir. Qışı ştambın qabığı altında, budaqlarda, bükülmüş quru yarpaqlarda pup mərhələsində keçirir. Pupların uzunluğu 5-6 mm-dir. Dişi fərd üzümün qönçə və çiçəklərinə 80-ə qədər yumurta qoyur. Tırtılların puplara çevrilmə prosesi bükülmüş yarpaqlarda, qabığın altında və zədələnmiş gilələrdə baş verir.

# Mübarizə tədbirləri

**Aqrotexniki mübarizə: -** Tənəklərdə havalanmanı təmin etmək üçün yaşıl budama və bağlama tələb olunan aqrotexniki qaydada aparılmalı. Salxım yarpaqbükəni kəpənəyinin puplarının tənəyin çoxillik hissələrində qabıq altında qışlamasını nəzərə alaraq, tənəyin bu kimi hissələri qabıqları təmizlənməli və yandırılmalı.

**Kimyəvi mübarizə: -** Kəpənələrin uçuş müddətini dəqiq müəyyənləşdirib tırtıllar əmələ gələnə qədər kimyəvi mübarizə aparılmalıdır. Kəpənəklərin uçuşunu düzgün müəyyən etmək üçün diametri 1 metr hündürlüyü isə 15 sm olan qablar 1 metr hündürlükdə ağaca bağlanır, ağac yerə sancılır. Qablara 8 hissə bəhməz və 1 hissə su tökülüb qarışdırılır. Kəpənəklər uçuş zamanı bu aldadıcı məhlulun iyinə yaxşı toplaşır.

**Təsiredici maddəsi:** Salxım yarpaqbükəninə qarşı, çiçəkləmədən qabaq, çiçəkləmədən sonra və üzüm yetişməyə başlayan zaman kəpənəyin uçuşundan asılı olaraq 0,1-0,2 faizli metofos, faralon, oqar məhlulundan istifadə edilir.



**Yetkin fərd**



**Zədəsi**